# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# İsanın Doğuluşu



Müəllif: Edward Hughes
İllüstrasiya edən: M. Maillot
Alastair Paterson
Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.
Tərcümə edən: Günay  Karaağac
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Uzun illər əvvəl, Allah  Məryəm adlı şirin bir yəhudi qızının yanına Cəbrayıl mələyi göndərdi.  Mələk ona dedi: “Sənin oğlun olacaq və Onun adını İsa qoy.  O, böyük olacaq və Haqq-Taalanın Oğlu adlanacaq.

Onun Padşahlığının sonu olmayacaq”.



“Bu necə olacaq?” lərzəyə gəlmiş qız soruşdu.  “Mən heç kişi görməmişəm”. Mələk Məryəmə dedi ki, körpə Allahdan gələcək.  Onun cismani atası olmayacaq.



Sonra mələk Məryəmə dedi ki, onun qohumu Elizavetin yaşlı vaxtında bətninə oğlan uşağı düşübdür.



Məryəm Yusif adlı bir adamla nişanlı idi. Yusif Mərməyin hamilə olduğunu eşidəndə kədərləndi. O fikirləşdi ki, uşağın atası başqa bir adamdır.



Yuxuda Allahın mələyi Yusifə dedi ki, bu uşaq Allahın Oğludur.  Yusif İsaya baxmaq üçün Məryəmə kömək etməli idi.



Yusif Allaha güvəndi və itaət etdi. O, həmçinin, öz ölkəsinin qanunlarına da itaət etdi. Yeni qanuna görə, o və Məryəm vergilərini ödəmək üçün öz şəhərlərinə, Bet-Lexemə getməliydilər.





Məryəmin doğuş vaxtı çatdı. Lakin Yusif heç bir yerdə otaq tapa bilmirdi. Bütün yataqxanalar dolmuşdu.

Nəhayət ki, Yusif tövlə tapdı. Körpə İsa orada doğuldu. Onun anası Onu axura, adətən heyvanların yeməyi qoyulan yerə qoydu.



Yaxınlıqda çobanlar öz sürülərini otarırdılar.  Allahın mələyi onlara göründü və bu xoş xəbəri onlara dedi. “Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Siz axurda yatan



bələnmiş Körpə tapacaqsınız”.

Qəflətən mələyin yanında Allaha həmd edən çoxsaylı səmavi ordu göründü. Onlar belə deyirdi:
“Ən ucalarda Allaha izzət, yer üzündə Onun razı olduğu insanlara sülh olsun!”



Çobanlar tələsik tövləyə getdilər.  Çobanlar Körpəni görəndən sonra mələyin İsa haqqında onlara nəql etdiklərini bildirdilər.





Yusif və Məryəm qırx gündən sonra İsanı Yerusəlimdəki məbədə gətirdilər. Orada Şimon adlı adam Körpəyə görə Allaha alqış etdi. Bu zaman Rəbbin digər xidmətçisi olan yaşlı qadın Xanna da Rəbbə şükürlər etdi.





Onların hər ikisi İsanın Allahın Oğlu, vəd olunmuş Xilaskar olduğunu bilirdilər. Yusif iki qumru quşunu qurban gətirdi. Bu, Allahın Qanununda kasıb adamların yeni doğulan körpəni Rəbbə təqdim etmək üçün olan qurban idi.



Bir müddət keçdikdən sonra xüsusi bir ulduz müdrik adamları şərqdən Yerusəlimə apardı.



“Yəhudilərin anadan olmuş Padşahı haradadır?”  onlar soruşdular.  “Biz Ona səcdə qılmaq istəyirik”.

Padşah Hirod müdrik adamlar haqqında eşitdi. Təlaşa düşərək onlardan İsanı taparkən ona da demələrini xahiş etdi. “Mən də Ona səcdə qılmaq istəyirəm”, Hirod dedi. Ancaq o yalan deyirdi. Hirod İsanı öldürmək istəyirdi.



Ulduz müdrik adamları düz Məryəm və Yusifin körpə Uşaqla olduqları evə aparıb çıxartdı.  Səyyahlar yerədək qapanıb səcdə edərək, İsaya xəzinələrindən qızıl və ətir hədiyyələri verdilər.



Allah müdrik adamlara evə başqa yolla qayıtmaları haqda xəbərdarlıq etdi. Hirod zalım idi. İsanı məhv etməyə qərarlı olaraq, zalım padşah Bet-Lexemdəki bütün oğlan uşaqlarını öldürdü.





Ancaq Hirod Allahın Oğluna zərər vura bilmədi!  Röyada xəbərdarlıq alaraq, Yusif Məryəmi və İsanı götürüb Misirə yollandı.



Hirod öləndə Yusif
Məryəm və İsanı Misirdən çıxartdı.
Onlar Qalileya dənizi yaxınlığındakı
balaca Nazaret adlanan şəhərdə yaşadılar.

İsanın Doğuluşu

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Matta 1-2, Luka 1-2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

36

60

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**